# ƏBDÜLBAQİ GÖLPINARLININ YARADICILIĞINDA BƏKTAŞİLİK MÖVZUSU: TARİXİ, MAHİYYƏTİ, SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Nəsrəddin MUSAYEV*

**Xülasə:** Türkiyənin ədəbiyyat tarixçiləri arasında orijinal fikirli tədqiqatçı kimi tanınan Ə.Gölpınarlı çoxşaxəli yaradıcılıq istiqamətlərinə malikdir. Bu çoxşaxəliliyin içərisində bəktaşilik mövzusunun da xüsusi önəmi vardır. Çünki Türkiyədə Ə.Gölpınarlıya qədər həmin mövzuda sistemli araşdırmalar yox deyilə biləcək səviyyədə idi. O, tədqiqatları ilə bu ətalətə son qoymuş, bəktaşiliyin mahiyyəti, prinsipləri, tədqiqi, spesifik xüsusiyyətləri barədə ətraflı məlumat vermişdir. Mövzunun müqayisəli araşdırma kontekstində tədqiqi onun elmi əhəmiyyətini daha da artırır. O bu mövzunu müdafiə və ya tənqid üçün deyil, obyektiv təhlil məqsədilə yazmışdır. Araşdırmamız zamanı Ə.Gölpınarlının özünün də bir müddət bəktaşilərə qoşulduğu, bəktaşilikdə axtardığını tapa bilmədiyinə görə ondan ayrıldığı müəyyən edilmişdir. Məqalədə Ə.Gölpınarlının bu mövzunu faktlara, sübutlara və dəlillərə əsaslanan ciddi elmi təhlillər əsasında yazdığı da əsaslandırılmışdır. Araşdırmadan da göründüyü kimi, o, bəktaşilik mövzusunu özünəməxsus şəkildə izah etmiş, həm öz dövründə, həm də sonrakı dövrlərdə bu sahədə böyük bir boşluğu doldurmağa nail olmuşdur. Bəktaşiliyin tarixi ilə bağlı ətraflı bəhs etmiş, təhlil və tənqidlərini elmi müstəvidə əsaslandıra bilmişdir. Yeri gələndə öz fikirlərini ifadə etməkdən, əvvəllər yazılmış əsərləri tənqid etməkdən də çəkinməmiş, mövzu ilə bağlı doğru olduğu bilinən yanlışları düzəltməyə çalışmışdır.

***Açar sözlər:*** *Əbdülbaqi Gölpınarlı, bəktaşilik, təsəvvüf, təriqət*

## Theme of Bektashısm in the Work of Abdulbagı Golpınarlı: Hıstory, Nature and Specıfıc Characterıstıcs

**Abstract:** A. Golpinarli, a researcher known with his original ideas among literary historians of Turkey, possesses multifaceted performing activity directions. The topic of Bektashism plays a special role among mentioned diversity. As until A. Golpinarli, almost no systematic research was set on that topic in Turkey. It is put an end to this inertia with his researches and comprehensive data about the essence, principles, research and specific features of Bektashism is presented by him. The study of the topic in the context of comparative research enhances its scientific importance. He had headed to the current topic not only for defense or criticism, but also for objective analysis. Thanks to the investigation, it was also determined that A. Golpinarli himself joined the Bektashis for a while and left Bektashism, as he could not find what he was looking for within the order. In the article, it is also justified that A. Golpinarli discusses the topic on the basis of serious scientific analyzes based on facts, evidences and proofs. As it seems in the research, he could explain the topic of Bektashism in his own practice and managed to fill a big gap around the mentioned field both in his period and later. The history of Bektashism was discussed in detail, the analysis and criticisms were substantiated on the scientific basis. When it was required, he did not hesitate to express his opinions, to criticize previously written works and put an effort to make amendments, due to the mistakes which were known correct about the topic.

***Key Words:*** *Abdulbagi Golpinarli, bektashism, mysticism, order*

## Giriş

Əbdülbaqi Gölpınarlı məlami təbiəti, ensiklopedik biliyi və güclü tədqiqatçılıq bacarığı ilə tanınan şəxsiyyətlərdəndir. O, uşaqlıqda atası ilə birlikdə Bahariyyə Mövləvixanasında ayinlərə qoşulmuş, 7 yaşında ikən başına Vələd Çələbi İzbudakın mövləvi sikkəsi qoyması ilə rəsmən mövləviliyi qəbul etmişdir. Təriqətin ədəbini və Razi fəlsəfəsini *(Allahla varlıq arasındakı əlaqəni və kosmik varlığın ortaya çıxmasını beş əzəli əsas adlandırdığı sistemlə izah edir: Allah, nəfs, zaman, məkan və maddə. Bu təlimə görə, dünyada şər Allahdan deyil, ruhun maddə ilə münasibətindən qaynaqlanır. Ona görə də bu dünyanın çirkabdan və pisliklərdən təmizlənməsini din deyil, fəlsəfə təmin edəcək – N.M.)* ona təriqət rəhbəri təyin edilən İbrahim Zühuridən öyrənmişdir. O, 1960-cı ildə mövləvi Əli Cəlal Çələbidən xilafət almış və ömrünün sonuna kimi həm bu yolu, həm də şiə inancını davam etdirmişdir.

Tədqiqat metodu baxımından M.F.Köprülü məktəbinə bağlı olmuş, sonradan elmi düşüncələri etibarilə müəllimini tənqid etsə də, onun haqqını unutmamış, bu ziddiyyət nifrət həddinə çatmamışdı. O, Ömər Fərid Kam, Hüseyn Fəxrəddin Dədə, Əhməd Naim, Əhməd İzzət, İsmail Saib Səncər, Tikveşli Yusif, Xoylu Hacı Şeyx Əli kimi dövrünün tanınmış simalarından müxtəlif elmlərin sirlərini öyrənmiş, Murad Bardakçı, Əli Alparslan, Hikmət

---

* Bakı Avrasiya Universiteti, E-mail: musayev.nm@mail.ru

DOI :10.30546/100981.2024.0162

İladin kimi onlarla şəxsiyyətin yetişməsində əhəmiyyətli rol oynamışdır. Əhməd Güner Sayar yazır:*"Gölpınarlı küskün ziyalı idi. Onun küskünlük və incikliyinin kökünü fərdi və insani münasibətlərdə, habelə cəmiyyətdə baş verən ictimai və sosial dəyişikliklərdə axtarmaq lazımdır. İtirilmiş bir mədəniyyətdən qalan səhra quraqlığının keçmişini çox yaxşı bildiyi üçün bu sosial ədalətsizliklərin insanları təcrid etdiyini qəbul edə bilmirdi. Onun sözləri fəryad kimidir: "... Dostluq var idi, sədaqət var idi... Ədəb var idi, can var, canan var idi, hicran var idi, eşq var idi. ... Və biz isə bu ölkədə qəribik"* [Sayar, 2014: s.166] .

## 1. Bəktaşiliyin Mahiyyəti, Prinsipləri, Tədqiqi və Spesifik Xüsusiyyətləri

Türkiyənin ədəbiyyat tarixçiləri arasında xüsusi yeri və mövqeyi olan Ə.Gölpınarlı çoxşaxəli yaradıcılıq istiqamətlərinə malik nadir tədqiqatçılardandır. Bu çoxşaxəliliyin içərisində bəktaşilik mövzusunun da xüsusi önəmi vardır. Çünki Türkiyədə Ə.Gölpınarlıya qədər həmin mövzuda sistemli araşdırmalar yetərli deyildi. O, "Ələvi-Bəktaşi nəfəsləri" və "Bəktaşilik-Ələvilik" kitablarını yazmaqla bu ətalətə son qoysa da, bəktaşilik mövzusunu bitmiş hesab etməmiş, daim yeni axtarışlarda olmuşdur.

Bəktaşilik təsəvvüf tarixində xüsusi əhəmiyyətə malikdir. Hacı Bəktaş Vəliyə aid edilən bu təriqət həmişə müzakirələrə səbəb olmuşdur. Bu mənada Türkiyə ədəbi-elmi mühitində Ə.Gölpınarlının mövləvilik və bəktaşilik kimi təriqətlər haqqında ən sanballı araşdırmalar aparması təsadüfi hal kimi qəbul edilməməlidir. O özü həmin təriqətlərin ədəb-ərkanına, qaydalarına, təlimatlarına uyğun yaşadığı üçün bu mövzuda dəyərli fikirlər söyləmək də ona nəsib olmuşdur. Qeyd etmək lazımdır ki, ələvilik və bəktaşilik Osmanlı dövlətində də geniş coğrafiyada yayılmışdı. Ə. Gölpınarlının bəktaşiliklə bağlı tədqiqatlar aparmasını onun sufi-təsəvvüf görüşü, bu təriqətin şiəliyə çox yaxın olması, şiələrin on dörd məsum adlandırdıqları şəxsiyyətlərə hədsiz sevgisi ilə də əlaqələndirmək olar.

Tədqiqatçıya görə, Hacı Bəktaş Vəli təkkəsi ən önəmli təkkələrdən biridir. Yeniçəri ocağını Hacı Bəktaş özünə pir seçmiş, ocağın fəaliyyəti dayandırıldıqdan sonra *"Bəktaşilik hökumət tərəfindən ləğv edilmiş, təkkələr nəqşibəndi şeyxlərinə verilmişdir. Bəktaşilər bir müddət gizlənmişdir"* [Gölpınarlı, 2010: s.3].

Ə.Gölpınarlı ələviliyi bir təriqət kimi qəbul etmir. Bəktaşilikdə kimin müraciəti qəbul olunurdusa, xüsusi bir mərasimlə təriqət üzvü olmaq imkanı qazanırdı. Ələvilikdə isə mütləq ya valideynlərin hər ikisinin, ya da atanın ələvi olması şərt idi. Ələvilərdə başqa təriqətdən qız almaq yoxdur; alan yoldan çıxmış hesab olunur. Tədqiqatçı sadəcə ələvilərlə bəktaşilər arasındakı fərqləri verməklə kifayətlənməmiş, onların ortaq cəhətlərindən də bəhs etmişdir. Düşünürük ki, alimin *"Əlini Tanrı yerinə qoymaq, on iki imamı, on dörd məsumu tanımaq... eyni duaları oxumaq başlıca birləşmə təməlləridir"* [Gölpınarlı, 2010: s.5] fikri ilə razılaşmaq olmaz. Ona görə ki, islam dinində insanın Allaha bərabər tutulması yolverilməzdir.

Gölpınarlı qaynağını Yunus Əmrədən alan ələvi-bəktaşi ədəbiyyatı XIV əsrdə Qayğısız Abdalla qurulmuşdur. O, *"Yunusdakı üstünlük təmiz türk dilində yazmasında, xalq duyğusunda, xalqa xalqın dili ilə söyləməsində idi"* [Gölpınarlı, 2010: s.1] deməklə, onu çağdaşlarından ayırır və belə qənatə gəlir ki, bu ədəbiyyat öz şeirini, inanclarını izah edir. Burada dünya sevgisi, dünyaya bağlılıq da xüsusi yer tutur.

Tədqiqatçı XVI əsrdə Xətai təxəllüsü ilə şeirlər yazan Şah İsmayıl Səfəvini ələvi-bəktaşi ədəbiyyatının ən didaktik, XVI əsrdə Sivasda asılan Pir Sultan Abdalı lirik şairi, Qul Hümmət və Hüseynini onun davamçısı kimi qəbul edir. Ş.İ.Xətaini didaktik şair adlandırmasını isə onun şeirlərində düşüncənin, fəlsəfi fikrin hakim olması ilə əsaslandırır. O, bəktaşilərin özlərini on iki təriqətin başçısı saydığı göstərir və yazır ki, *"Ərdəbil ocağına və öz aralarından seyid, yəni peyğəmbər soyundan olduqlarına inandıqları ocaqlarla bağlı olan ələvilərlə eyni inancları mənimsəməklə bərabər bir təriqəti təmsil edən bəktaşilər özlərini ən doğru yolun yolçusu sayarlar"* [Gölpınarlı, 2010: s.22].

Bəktaşilik Allahın varlığına, Qurani-Kərimin müqəddəsliyinə, Həzrəti Məhəmmədin son peyğəmbər, Həzrəti Əlinin ilk vəli, hər dövrün də öz vəlisi olduğuna və Hacı Bəktaş Vəlinin

pirliyinə inanan təriqətlərdən biridir. Bu təriqətin üzvləri Həzrəti Əliyə olan sonsuz sevgisinə görə ələvilərdir. Xorasan məktəbində təhsil alan Hacı Bəktaş Vəli bu inancı dörd qapı, qırx məqam düşüncəsi ilə yaratmışdır. Bu inancın əsasını Qurani-Kərim, Məhəmməd peyğəmbərin, əhli-beytin, Hacı Bəktaş Vəlinin və Balım Sultanın düşüncələri təşkil etməklə bərabər, aşağıda qeyd olunan inamların da vacib əməl olduğu bildirilir: 1. Tövhid (Allahın varlığına və birliyinə inanmaq); 2. Ədalət (Allahın adil olduğuna inanmaq); 3. Nübüvvət (peyğəmbərlərə inanmaq); 4. İmamət və vilayət (on iki imamların öndərliyinə inanmaq); 5. Məad (qiyamət, axirət gününə inanmaq).

*"Bəktaşilər öz yollarını ən doğru və əsaslı bir yol sayır, on iki təriqətin başı bizik deyərlər"* [Gölpınarlı, 2010: s.22]. Bu səbəbdən də bəktaşi inancına görə, Allahı sevmək Qurani-Kərimdə də bildirildiyi kimi, ən gözəl biçimdə yaradılmış insanı sevməkdən başlayır. İnsanın yaxşı və pis olması isə onun nəfsinə nə dərəcədə hakim olmasından asılıdır. Bəktaşilikdə Əhli-beytin siyasi öndərliyi yox, mənəvi öndərliyi əsasdır. Onlar ölkəsinin bütövlüyü, əmin-amanlığı üçün dualar etməyi mənəvi borc bilir, kamil insan yetişdirməyi qarşılarına məqsəd qoyurlar. Vaxtı çatmadan heç bir işin həlli mümkün hesab edilmir. Bəktaşilər onlardan fərqli düşünənlərə hörmətlə yanaşır, digər dinlərdən bu təriqətə gələnlərə əvvəlcə müsəlmanlığın ilk şərti hesab etdikləri kəlmeyi-şəhadəti öyrədirlər. Daha sonra dəstəmaz aldırılır, rəhbər şəxsin iştirakı ilə iki rükət namaz qıldırılır və bu ərkanın digər qaydalarına əməl olunmasına nəzarət edilir.

Müəllifə görə, Balım Sultanın qardaşı Qələndər Çələbinin üsyanından sonra şübhə yaratmamaq üçün bəktaşilər iki qrupa bölündü: Balım ərkanını qəbul edənlərə - çələbilərə və səfəvilərə bağlı olan ələvilərə - yəni qızılbaşlara. Beləliklə, Ə.Gölpınarlı bəktaşiliyin Əliyyül-Əlanın təlqini, Balım Sultanın səyi ilə ortaya çıxdığını iddia edərkən, böyük ehtimalla, bəktaşiliyin ayin və adətlərinin bərqərar olmasını və təriqətin sistemləşdirilməsini nəzərdə tutur. Bəktaşiliyin qurucusunun Hacı Bəktaş Vəli olduğu isə məlum məsələdir. Bu təriqətin tarixi ilə maraqlanan tədqiqatçılar dövrləşdirmə apararkən XIII əsrdən XV əsrin sonlarına qədər olan dövrü formalaşma dövrü, XVI əsrədən, yəni Balım Sultandan başlayan dövrü ikinci mərhələ adlandırırlar. Bəziləri isə 1826-cı ildə bəktaşiliyin qadağan edilməsindən sonrakı dövrü üçüncü dövr hesab edirlər.

Araşdırmamız zamanı o da məlum oldu ki, Ə.Gölpınarlı bir müddət bəktaşi adı ilə tanınan Böyük Abdullah Babaya qoşulmuş, bəktaşilikdə axtardığını tapa bilmədiyinə görə ondan ayrılmışdır. Ayrılmağının səbəbini bu sözlərlə ifadə edir: *"...Onlarda axtardığımı tapa bilmədim və bir səhər duranda kağıza "Külahını al, təşəkkür edirəm" sözlərini yazdım və təkkədən ayrıldım. Gediş, o gediş"* [Alparslan, 1996: s.8]. "Hürufilik mətnləri kataloqu" adlı əsərində XX əsrin əvvəllərində, hələ uşaq ikən bir alban bəktaşisindən aldığı duyğunu bəktaşi dairələri ilə münasibəti kontekstində çatdırması da diqqət çəkir [Gölpınarlı, 1973: s.33]. Onunla çox səmimi münasibətdə olan Murad Bardakçı alimin bəktaşilik mövzusunda sonralar da əsər yazmaq istəyini bir məqaləsində belə ifadə edir: *"Bu qədər əsərlər yazmasına rəğmən illərlə yazmaq istədiyi bir kitab var idi: Bəktaşilik... İlk gəncliyini keçirdiyi, hətta müəyyən bir rütbəyə çatdığı, amma sonradan "nə olduqlarını gec anladım...", - deyərək ayrıldığı bu yolu Gölpınarlıdan daha əhatəli yazan, bəlkə də tapılmayacaq, amma özünə də qismət olmadı... 80 yaşını keçdiyi günlərdə "Bəktaşiliyi yazmaq üçün ən azı beş il lazımdır", - deyirdi... Əlimdəki sənədləri təsnif etmək iki il, arxivdə işləmək iki il, oturub yazmaq da bir il. ... Mənim isə o qədər ömrüm yoxdur"* [Bardakçı, 1995: s.10] **.** Bu fikirlər Ə.Gölpınarlının bəktaşilik mövzusunda çox ciddi məlumatlara malik olmasının aydın ifadəsidir.

Qeyd etmək lazımdır ki, bir ədəbi şəxsiyyətin yaradıcılığı və daha əhəmiyyətli saydığı mövzu ilə bağlı bir neçə əsər yazmaq Ə.Gölpınarlı üçün xarakterik haldır. Məsələn, o, Mövlana Cəlaləddin Rumi (5 kitab), Məhəmməd Füzuli (2 kitab), Yunus Əmrə (6 kitab), divan şeiri (6 kitab) və təsəvvüflə (5 kitab) bağlı yazdığı çoxsaylı əsərləri ilə tanınır. Yüksək elmi dəyəri olan bu əsərlərin hər biri türkologiyamız üçün əhəmiyyətli hadisə kimi qiymətləndirliə bilər.

Ə.Gölpınarlı "Bəktaşilik-Ələvilik" əsərinin müqəddiməsində bildirir ki, bu əsəri müdafiə və ya tənqid üçün deyil, obyektiv təhlil məqsədilə yazmışdır. Əsər giriş də daxil olmaqla, ümumilikdə iyirmi iki fəsildən ibarətdir. Bu əsərin yazıldığı dövrdə yazıda çox da rast gəlinməyən məsələlərdən - abzaslardan, mötərizə və qeydlərdən istifadə kimi xüsusiyyətlər sözügedən tədqiqat üçün xarakterikdir. Haşiyələrdə bəzən əsərin ayrı-ayrı hissələri ilə bağlı, bəzən də ətraflı izahatlar verilir. Tədqiq etdiyi mövzu və hadisələri ətraflı nəql edən müəllif çox vaxt təsvir və izahedici üslubdan istifadə etmiş, mötəbər mənbələrdən ustalıqla bəhrələnmiş, çoxsaylı sitatlar gətirməklə fikirlərini əsaslandırmağa çalışmışdır. Əsərdə bəktaşilik və ələviliyin tarixi keçmişi, müxtəlif inanclarla əlaqəsi, qurucusu sayılan şəxsin həyatı, təriqətə xas olan əşya və əməllər, onların düşüncə və fəlsəfələri, təriqətə mənsub şəxslər və resurslar tədqiq olunur.

Ə.Gölpınarlı qeyri-adi üslubda yazdığı bu əsərində bəktaşilik və ələvilikdəki sirr və təbərra təlimləri haqqında müfəssəl məlumat verir, bu inanca sahib olanların təriqət məsələlərini sirr kimi saxlamağı və başqalarına deməməyi özlərinə borc bildiklərini və bunu haqq saydıqlarını bildirir. Bu məlumatların bir qisminin deyildiyi təqdirdə səhv başa düşülməsindən çəkindikləri üçün onları gizli saxlamaq məqbul hesab olunmuş, bəziləri isə şifrələnmiş və müxtəlif üsullarla istifadə edilmişdir. Əslində isə sirr saxlamaq "Məqalət"də haqq qapısının səlahiyyətlilərindən sayılır [Velî, 2010: s.81].

C. K. Birge bu qənaətdədir ki, "Bəktaşi sirri"nin üç fərqli ölçüsü var: teoloji; siyasi; əxlaqi və ictimai. İnsanlarda Allahın xüsusi təcəlliləri olduğuna inam bu sirrin teoloji ölçüsünü göstərir. Cəfəri olan, On iki imama inanan və ilk üç xəlifənin qanuni xilafətini rədd edən bəktaşilər üçün sirrin həm də siyasi ölçüləri var ki, bu da təvəlla və təbərra hadisələrinin uzanmasıdır. Bəktaşilikdə qadın və kişinin rituallarda bərabər iştirakı Osmanlı dövründə müsəlmanlar arasında heç bir yerdə olmayan bəktaşi lojası daxilində ictimai həyata yol açan sirrin mənəvi və ictimai ölçüsünü göstərir. Buraya sirrin simvolik tərəfini də əlavə etmək olar. Əslində, bəktaşilərin istər ayinlərində, istərsə də gündəlik söhbətlərində kənar adamların başa düşə bilməyəcəyi bir çox simvolik metaforları var.

Ə.Gölpınarlı bəktaşiliklə bağlı faktlara, sübutlara və dəlillərə əsaslanan ciddi elmi təhlillər əsasında yazılmış əsərlərin olmadığını, məsələn, Xoca İshaqın qələmə aldığı "Kəşfül-Əsrar"ın bəktaşiliyin yalnız hürufilikdən ibarət olduğunu düşünərək yazıldığını, Mehmed Arifin "Min bir hədis" adlı əsərinin qənaətbəxş olmadığını, Mehmed Şəmsəddin Günaltayın "Xurafatdan həqiqətə" kitabının da min bir hədisdən iqtibaslar olduğunu, Yaqub Qədri Qaraosmanoğlunun "Nur Baba" romanının ayinlərin təsvirindən başqa bir şey olmadığını bildirir. Bu məqsədlə, bir çox təriqətlərin izini daşıyan, başa düşülməsi o qədər də asan olmayan bəktaşilik və ələviliyi obyektiv bir anlayışla təhlil edəcəyini deyən müəllif, bu qrup tərəfindən saxlanması fərz olan sirləri bütün təfərrüatları ilə açdığı üçün tənqid hədəfinə çevriləcəyini də bilirdi. Ona görə də bu iradları tənqidin inkişaf etdiyi XX əsrdə sirr saxlamağın gərəksiz olduğunu, elmi olmayan tənqidlərə cavab verməyə ehtiyac duymadığını, məqsədinin heç kimə böhtan atmadan, yalnız milli təəssübkeşlikdən qaynaqlandığını yazırdı. Bütün bunlara rəğmən, əsərinin bu mövzudan xəbəri olmayanlara təsir etməyəcəyinin də fərqindədir. O, əcdadların yolunu sorğu-sual etmədən və düşünmədən gedənlərin, Quranda da qeyd edildiyi kimi, açıq-aşkar bir xəta içində olduqlarını bildirir.

**2. Bəktaşilik Müqayisəli Araşdırma Kontekstində**

Ə.Gölpınarlı bəktaşiliyin əsl mahiyyətinin düzgün dərk edilməsi üçün onun cəfəriliklə, batiniliklə, qızılbaşlarla, hürufiliklə əlaqəli və müqayisəli şəkildə öyrənilməsini zəruri hesab etmiş, tədqiqatlarını da bu yöndə aparmışdır. Mövzu ilə bağlı anlaşılmazlıqların çoxluğu səbəbi ilə təhlilinə cəfərilik və bəktaşiliyi müqayisə edərək başlayan Gölpınarlı, bəktaşiləri və ələviləri cəfəri saymadığını, onlara inanc əsasları ilə bağlı sual verilsə bilməyəcəklərini yazır. Müəllif əhli-sünnə məzhəbləri ilə cəfərilik arasında müqayisə aparıldıqda, həm əqidə, həm də ibadət

prinsipləri baxımından çox da fərq olmadığını misallarla ifadə edərək, cəfərilərin mötəzililik və ya fatalizm kimi ifrata varmadıqlarını bildirir.

Tədqiqatçı təsəvvüfü öz dövrünü yaşayıb tarixləşmiş bir zövq kimi görmüşdür. Keçmişi daha yaxşı dərk etmək üçün təsəvvüfün tarixinin öyrənilməsini zəruri hesab etmiş, mövzu ilə bağlı müxtəlif kitablarında bunları bildirmişdir: *"Təsəvvüfə yiyələnənlər, ona sadiq olanlar bizi bağışlasınlar, bir irfan, məhəbbət, eşq, zövq mövzusu olmuş tarixi araşdırma mövzusu, bu gün elmə çevrilib"* [Gölpınarlı, 1985: s.173-174].

Ə.Gölpınarlı bəktaşilik və qızılbaşları tədqiq etməzdən əvvəl batini təriqətlərinin necə meydana gəldiyini araşdırmağı daha faydalı hesab etmişdir. Onun fikrincə, ədalət və fəzilətlə yayılan islamiyyət təkcə qüdrətli bir hökumət deyil, birlik fikrinə də sahib olduğu üçün öz sərhədlərini genişləndirərkən məğlub etdiyi xalqların köklü adət-ənənələri və düşüncələrini də nəzərə almağa məcbur olmuş, beləliklə də batini təriqətlərin öz ideyalarını yaymaq imkanları artmışdır. Gölpınarlı yazır ki, batinilərə görə Allahın sifətləri haqqında təfsir yolverilməzdir, dünya heç vaxt imamsız ola bilməz, zahirdə olmasa da, həmişə gizli imam vardır, dini və məzhəbi ancaq bu imamlardan və ya onların vəkillərindən öyrənmək olar. Müəllifə görə, batinizm çoxlu cəfəngiyyatlar ehtiva edir və bu inanc sistemi insandan yavaş-yavaş imanı almağa hesablanıb. Başqa bir əsərində, hətta batinizmdən belə bəhs edir: *"Batinizm qədim hind-İran dinləri ilə sabiliyin və yunan fəlsəfəsinin islamiləşməsindən başqa bir şey olmayan hökmlərdən formalaşmışdır"* [Gölpınarlı, 2016: s.124] **.**

Ə.Gölpınarlı bəktaşiliklə hürufilik arasındakı əlaqəni elmi təhlillər əsasında müəyyən etməyə nail olmuşdur. O da hürufi əqidəsinin banisinin Fəzlullah Hürufinin olduğunu təsdiq edir və yazır ki, insanların şübhə etdiyi bu inanc Pifaqor fəlsəfəsinin başqa bir formasıdır. Əslində, təsəvvüf əhli olanlar hərflərdən bəzi mənalar çıxarıb təfsir etsələr də, varlığı, yaratmaq qüdrətini Allaha, şərin mənbəyini isə insana aid etmişlər; lakin hürufilikdə vəziyyət başqadır və işin sonu onlarda ibahilikdir. Onlara görə, kainat - nübüvvət, imamət və ilahiyyat olmaqla üç dövrə bölünür. Nübüvvət Hz. Adəmdən başlayıb və Hz.Məhəmməd ilə sona çatıb. İmamət Əli ilə başlayıb Həsən əl-Əskəri ilə bitib. İlahiyyat dövrü isə sonuncu zühur olan Fəzllə başlamışdır, ondan sonra isə zühur olmayacaq [Gölpınarlı, 2016: s.150]. Fuad Köprülü də hürufiliyi heç bir fəlsəfi və əxlaqi dəyəri olmayan, İslam mistisizminin sələfi üzərində təcrübəsiz şəkildə qurulmuş sadəlövh inanclar toplusu kimi görür [Köprülü, 2016: s. 448].

Ə.Gölpınarlı hürufilərin İslam şəriətindən tamamilə ayrıldığını, bu inancın sufilərin birlik inancından çox fərqləndiyini, əsasən, materialistlərlə ortaq bir fikrə sahib olduğunu bildirir və bəktaşiliyin formalaşması zamanı Anadoluya gələn bəktaşiliyə hürufi təriqəti şəklini verən Əliyyul-Əla, Fəriştəoğlu Əbdülməcid, Rəfii, Yəmini, Misali Gül Baba, Kenzi, Şah Xətai kimi görkəmli hürufilərin adlarını qeyd edir. Müəllifin adını çəkdiyi Əliyyul-Əla Fəzlullahın ən mühüm xəlifəsidir. Hürufi düşüncəsinin bəktaşiliyə ilhaq edilməsində ona ən böyük rolu Rza Tofiq və Bausani vermişdir [Usluer, 2009: s. 57]**.**

Ə.Gölpınarlı hürufilərin siyasətə qoşulduğu üçün hədələrə məruz qaldığını, buna görə də təqiblərdən yayınmaq məqsədilə o dövrdə çox güclü nüfuza sahib olan bəktaşilərlə qaynayıb-qarışdığını dəfələrlə vurğulayır və buna dəlil olaraq bəktaşilikdə xətmi-hüruf və bəzi duaları dəlil kimi göstərir. Alimə görə, hürufilər az bir vaxtada bəktaşilər içərisində böyük nüfuz qazanmış, hətta bəzi məsələlərdə onlara ciddi təsir göstərmişdir. O, Hacı Bəktaş Vəliyə aid edilən "Vücudnamə" adlı əsərdən bir neçə misra gətirərək iddiasını əsaslandırır.

Fəzlullah Hürufinin "Cavidani-Kəbir"ini türk dilinə çevirən, həmçinin Dərviş Mürtəzanın "Yetimnamə" və Arsinin "Divan"ından sitat gətirən müəllif, Fəzlullahın xəlifələrindən olan İmadəddin Nəsiminin, bəktaşi dərvişlərindən Divan sahibi Mühyiddin Abdalın, Turabi Əli Babanın və Mihrabi Babanın hürufi olduğunu bildirir. Digər tərəfdən, hürufi şairlərindən "Fəzilətnamə" müəllifi Yəmininin, "Feyznamə" sahibi Misali Gül Babanın, "Risalə" sahibi Giritli Rəsminin, "Həqiqətül-həqaiq"in müəllifi Mustafa Rəsminin də bəktaşi olduqlarını yazır. Bəktaşiliyin əsasını hürufiliyin təşkil etdiyinə dair bütün dəlilləri sadalamaqla

cildlərlə kitab yazmağın mümkün olduğunu bildirən Ə.Gölpınarlı, adı çəkilən bəzi şairlərin şeirlərindən bir neçə misal çəkməklə kifayətlənmişdir.

XV əsrdə Fəzlullahın tələbələrinin Anadoluda yayılması ilə hürufilikdən ən çox bəktaşiliyin təsirləndiyi haqqında fikirləri tədqiqatçılar da təsdiqləyir. *"XVI və XVII əsrlərdə bu əqidə bəktaşilərin əsas inanclarından biri olmuşdur"* [Usluer, 2009: s.181].

Besim Atalay isə hürufiliyi İslam şəriətini inkar edən ayrı bir təriqət olaraq görsə də, bəktaşiliyi təsəvvüf yolu hesab edir. Hürufilikdən bir çox təriqətin təsirləndiyini bildirən Atalaya görə, hətta İbn Ərəbinin də bu təsirdən payı var [Atalay, 2015: s. 30, 45]. Daha çox Anadolu və Rumelidə fəaliyyət göstərən, lakin İran, Hindistan və Türküstan kimi bölgələrdə təsiri olmayan [Faroqhi, 2003. s. 91-92] qapalı və qarışıq bir kütlə olan bəktaşiliyin hələ lazımınca araşdırılmadığını bildirən Ə.Gölpınarlı, onların hürufilikdən başqa, Qərməti və Həsən Sabbah batiniliyi, babailik, əxilik, qələndərilik və abdallığa təsir etdiyini də bildirir.

Müəllifin qeyd etdiyi kimi, bütün təriqətlər kimi bəktaşilərin də yalnız öz nümayəndələrinin başa düşə biləcəyi bəzi terminlər vardır və bu mövzuda araşdırma aparanların həmin terminləri yaxşı bilməsi vacibdir. Bu vəziyyət təsəvvüf də daxil olmaqla hər sahəyə aiddir. Xüsusilə təsəvvüfdə sufilər hər kəs tərəfindən başa düşülmək istəmədikləri anlayışları şifrələyərək istifadə edirlər. Batiniliyə bənzər olaraq öz içində dərəcələrə bölünən bəktaşilikdə hər təbəqənin dərviş ayinləri də fərqlidir və hər dərəcədəki dərviş onlara aid olan biliyi digər dərəcələrdən gizli saxlamağa borcludur. İyerarxiyada muhibblik, dərviş, atalıq və xilafət kimi dörd mərtəbəyə bölünən bu səviyyələrin ən üst mərtəbəsində olan xəlifələr özündən aşağıda olan bütün dərəcələrin sirlərinə bələd olsalar da, açıqlamırlar. Ə.Gölpınarlının fikrincə, onsuz da batinilikdən ibarət olan bəktaşiliyin inanc sistemində bir az mistisizm, bir qədər də absurd şeylər var. Tövhid inancları hürufilərlə eynidir. Hər iki qrup materializm ideyasını qəbul edir və onların vəhdət anlayışı sufilərin varlığın vəhdəti anlayışından fərqlidir.

Sufilərə görə, vəhdəti-vücud varlığın bilikdə və düşüncədə bir olması deməkdir. Salik həqiqi varlığın yalnız bir olduğundan, onun da Haqq və Haqqın təcəllasından başqa bir şey olmadığından xəbərdardır. Bu bilik yalnız riyazat və mənəvi yüksəlişlə birlikdə mənəvi təcrübə ilə əldə edilə bilər [Yılmaz, 2013: s.286]. Bəktaşiliyə görə, ruhun həmişə bədənə ehtiyacı var. Həmişə bir dövr və reinkarnasiya hakimdir, yaradan isə Allahın özüdür. Müxtəlif inanclarda özünə yer tapan reinkarnasiya anlayışı insan ruhunun ölümdən sonra bu dünyada və ya başqa bir aləmdə varlığını davam etdirə bilməsidir [Yitik, 2011: s. 443]. Ona görə də bəktaşilikdə reinkarnasiya anlayışı sufizmdə qəbul edilən zaman anlayışından fərqlidir. Bəktaşilikdə ölüm köynək dəyişməkdən başqa bir şey deyildir.

Bəktaşilər ilahiliyin təcəssümünü qəbul etdikləri üçün Hz. Əliyə ilahilik dərəcəsi verirlər. Onlara görə, Hz. Əli bir sifət olaraq ortaya çıxmış və yenə sirr olmuş, o, öldükdən sonra tabutunu özü daşımışdır. Gölpınarlı ilahiyyatdan bəktaşiliyə keçən bu hadisəni Mirati Baba dastanına, Qul Himmət və Virani nəfəslərinə əsaslanaraq dəstəkləyir. Bəktaşilərin əxlaqı ilə əlaqədar müəllif belə fikirdədir ki, təlqində verilən nəsihətlər yalnız bu təriqətə yeni qoşulanlar üçün keçərlidir. Əvvəldən bu yolda olanlar üçün isə heç bir günah yoxdur. Onlara görə, günah qəlbləri qırmaqdan, insanlara zərər verməkdən ibarətdir. Məsələn, şərab içmək halal olduğu halda, şərab içib və kiminləsə dava etmək günah sayılır.

**Nəticə**

Bu araşdırmadan da göründüyü kimi, bəktaşilik mövzusunu Ə.Gölpınarlı özünəməxsus şəkildə izah etmiş, həm öz dövründə, həm də sonrakı dövrlərdə bu sahədə böyük bir boşluğu doldurmağa nail olmuşdur. O, bəktaşiliyin tarixi ilə bağlı ətraflı bəhs etmiş, təhlil və tənqidlərini elmi müstəvidə əsaslandıra bilmişdir. Yeri gələndə öz fikirlərini ifadə etməkdən, əvvəllər yazılmış əsərləri tənqid etməkdən də çəkinməmiş, mövzu ilə bağlı doğru olduğu bilinən yanlışları düzəltməyə çalışmışdır. Ə.Gölpınarlının bəktaşiliklə bağlı yazdıqlarına əsaslanıb belə deyə bilərik ki, mövzuya dair ilkin yazılı mənbələrin yetərsizliyi, ənənənin şifahi şəkildə ötürülməsi, müzakirələrin bəzən peşəkarcasına deyil, maraqlı tərəflərin istəklərinə

uyğun aparılması səbəbindən bu sahə həm çətin, həm də həssas sahə olaraq qalmaqdadır. Ə.Gölpınarlının bir qədər aydınlıq gətirdiyi bu mövzunun hələ də ciddi şəkildə tədqiq edilməsinə ehtiyac var.

**ƏDƏBİYYAT**

Alparslan, Ali (1996), Abdülbâki Gölpınarlı, Ankara, Kültür Bakanlığı Milli Kütüphane Basımevi.

Atalay, Besim(2015), Bektaşilik ve Edebiyatı, İstanbul, Ötüken.

Bardakçı, Murat (1995), "Salacak'taki Ahşap Ev, Baki Hoca ve "Garîb", Journal of Turkish Studies:Türklük Bilgisi Araştırmaları, c.XIX [In Memoriam Abdülbaki Gölpınarlı Hâtıra Sayısı I].

Faroqhi, Suraiya (2003), Anadolu'da Bektaşilik, İstanbul, Simurg Yayıncılık.

Gölpınarlı, Abdülbâki (1985), 100 Soruda Tasavvuf, İstanbul, Gerçek Yayınevi.

Gölpınarlı, Abdülbâki (2010), Alevi-Bektaşi nefesleri. İstanbul, İnkılap kitabevi.

Gölpınarlı, Abdülbâki. Bektaşîlik-Alevîlik, İBB Atatürk Kitaplığı, Osman Ergin Yazmaları, nr. 87, vr. 45a.

Gölpınarlı, Abdülbâki (1973), Hurûfîlik Metinleri Kataloğu, Ankara, Türk Tarih Kurumu Basımevi.

Gölpınarlı, Abdülbâki (2016), Türkiye'de Mezhepler ve Tarikatler. İstanbul, İnkılâp Kitabevi.

Köprülü, M. Fuat (2016), Türk Edebiyatında İlk Mutasavvıflar. İstanbul, Alfa.

Sayar, Ahmed Güner (2014), Abdülbâki Gölpınarlı, İstanbul, Ötüken Yayınları.

Usluer, Fatih (2009), Hurufilik. İstanbul: Kabalcı Yayınevi.

Velî, Hacı Bektaş-ı (2010), Makâlât Hünkâr Hacı Bektâş-ı Veli, İstanbul, TDV Yayınevi.

Yılmaz, Hasan Kâmil (2013), Ana Hatlarıyla Tasavvuf ve Tarîkatlar, İstanbul, Ensar Neşriyat.

Yitik, Ali İhsan (2011), "Tenasüh", İstanbul, DİA.